# “Qız qalası” kitabı təqdim olundu

Sentyabrın 29-da Yazıçılar Birliyinin Natəvan klubunda Azərbaycan Respublikasının Polşadakı Fövqəladə və Səlahiyyətli Səfiri, tarix elmləri doktoru Həsən Həsənovun “Qız qalası” kitabının təqdimat mərasimi keçirilib.

Tədbiri Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar açaraq tədbir iştirakçılarını salamladıqdan sonra “Qız qalası” kitabı haqqında fikirlərini bölüşüb/

Sonra çıxış edən Mədəniyyət və turizm nazirinin müavini Ədalət Vəliyev tədqiqat əsərinin İçərişəhərin və ümumilikdə Bakının tarixinin öyrənilməsində yeni mərhələ olduğunu diqqətə çatdırıb.

Daha sonra kitabın müəllifi, tarix elmləri doktoru Həsən Həsənov gərgin araşdırmalara əsaslanan nəşrin əhatə etdiyi tədqiqatlar və əldə olunan nəticələr haqqında ətraflı təqdimatla çıxış edib.



Üç hissədən ibarət olan kitabın titul vərəqində Xalq rəssamı Tahir Salahovun əl işi verilib. Nəşrdə həmçinin Qız qalasının tarixi və onun haqqında araşdırmalarla bağlı fotoşəkillər də yer alıb. “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin sifarişi ilə nəşr olunmuş kitaba AMEA-nın Memarlıq və İncəsənət, Tarix və Dilçilik institutlarının nümayəndələrinin də daxil olduqları yerli və xarici alimlər heyəti rəy verib. Kitabın elmi redaktoru mərhum akademik Rasim Əfəndiyevdir.

Tədbirdə Azərbaycan Yazıçılar Birliyinin I katibi, Xalq şairi Fikrət Qoca, M.F. Axundov adına Milli Kitabxanaın direktoru Kərəm Tahirli, AYB-nin katibi Rəşad Məcid, Əsəd Cahangir və başqa qələm adamları çıxış edərək “Qız qalası” kitabı haqqında müsbət fikirlərini çatdırıblar. Çıxış edənlər rus dilində olan “Qız qalası” kitabının doğma dilimizə, eləcə də müxtəlif dillərə tərcümə edilməsinin vacibliyini vurğulayıblar.